Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstəyi

# “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ

İyun 2024

8-ci hissə

# YARDIMLIDA KARTOF İSTEHSALININ ARTIRILMASI: Aİ-NİN KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINA DƏSTƏYİ



*Kartof sahəsi, Yardımlı*

“Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonuna dəstəyi” (“EU4Lankaran”) layihəsi regionun rayonları üçün dəyər zənciri hesabatları hazırlayıb. Hesabatlardan biri kənd təsərrüfatının, xüsusən də kartofçuluğun əsas yer tutduğu dağlıq ərazi olan Yardımlı rayonundakı kartof dəyər zəncirini əhatə edir. Yerli kartof istehsalı tələbatı qarşılayır və son zamanlar əkin sahələri genişlənib. “EU4Lankaran” layihəsi problemləri həll edərək və performansı artırmaq üçün strateji müdaxilələr təklif edərək bunu dəstəkləyir.



*Kartof, Yardımlı*

Hesabatda kartof əkininin 2000-ci ildə 460 hektardan 2022-ci ildə 928 hektara, istehsalın isə 4798 tondan 8595 tona qədər artdığı göstərilir. Lakin, keyfiyyətsiz toxumluq kartof və məhdud innovativ texnika kimi səbəblərə görə hər hektardan əldə edilən məhsuldarlıq aşağıdır. Rayonun relyefi və iqlimi çətinliklər yaradır, fermerlər yağış suyuna arxalanır və iqlim dəyişikliyi ilə bağlı problemlərlə üzləşirlər. Qeyri-kafi suvarma və anbar infrastrukturu fermerləri məhsullarını tez, çox vaxt daha ucuz qiymətə satmağa vadar edir.

Çətinliklərə baxmayaraq, bəzi fermerlər bu illər ərzində kartof istehsalında uğur əldə ediblər. Bu fermerlərdən biri də Vaqif Ağayevdir. Gəlin onun uğur hekayəsiylə daha yaxından tanış olaq.

İlk vaxtlar arıçılıqla məşğul olan Vaqif Ağayev bal satıb və sahədəki digər fermerlərə məsləhətlər verib. 2008-2010-cu illərdə Dünya Bankı tərəfindən maliyyələşdirilən "Fermerdən Fermerə Dəstək" layihəsindən yararlanıb. Layihənin dəstəyi ilə onun təsərrüfatında Rusiyanın “Udaçi” kartof toxumu üçün nümayiş sahəsi yaradılıb. O vaxtdan Sırığ və ətraf kəndlərdə fermerlərə kartof toxumu satır. Kiçik satış köşkü yaradıb və hazırda 30 hektar sahədə kartof istehsal edir. Uğurlarından ruhlanan Vaqif toxum, gübrə və pestisidlər də daxil olmaqla, digər təsərrüfat mallarını da satmağa başlayıb. O, həmçinin kartof istehsalçılarına aqrar məsləhət xidmətləri təklif edir.

# “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ

Yardımlı rayonunda kartof dəyər zənciri təhlili vacib məsələləri işıqlandırır. Fermerlərin yüksək keyfiyyətli, sertifikatlı toxumluq kartof və uyğun gübrələrə çıxışı yoxdur və bu da, xəstəlik riskini artırır. Gübrə və pestisidlər lokal olaraq azdır, bu, fermerləri daha az təsirli üzvi gübrələrdən istifadə etməyə məcbur edir. Kartof marketinqi zəifdir, satışlar əsasən sentyabrdan mart ayına qədərdir. Yüksək nəqliyyat xərcləri, İran və Rusiyadan idxal olunan kartofun rəqabəti yerli fermerlərə təzyiq edir.

Bir çox fermerlər yüksək nəqliyyat xərcləri və dağlıq ərazilər səbəbindən bazarlara çıxışda çətinliklərlə üzləşirlər və bu, alternativ həll yollarının axtarışına səbəb olur. Gəlin bu çətinliyin konkret bir nümunəsini nəzərdən keçirək.

*2023-cü ilin statistik məlumatlarına əsasən rayonun 980 hektar kartof əkin sahəsinin 100-ü Yardımlı rayonunun ən böyük kəndi olan Alarda yerləşir. Yardımlı rayon mərkəzindən 15 km, Masallı şəhərindən 53 km məsafədə yerləşən dağlıq kəndə payız-qış aylarında adi avtomobillərlə getmək mümkün olmur. Kəndlilər məhsullarını Masallıda satır, zəruri ehtiyacları isə şəhərdən alırlar.*



**Kartof sahəsi, Yardımlı**

Çətin yol şəraiti fermerlərin nəqliyyat xərclərini artırır. Bunun aradan qaldırılması üçün Yardımlı Rayon İcra Hakimiyyətinin yerli nümayəndəsi Mirzəağa Canıyev nəqliyyatın hərəkət cədvəlini təşkil edib. Fermerlər onu bazar səfərləri barədə xəbərdar edir və o, yük maşını sahibləri ilə birgə nəqliyyatın təşkili üçün koordinasiya edir, bununla da xərcləri azaldır. Bu sistem həm də toxumluq kartofun alınması və mal-qaranın satışı üçün istifadə olunur.



**Kartof sahəsi, Yardımlı**

"EU4Lankaran" layihəsi Yardımlı rayonunda əsas problemləri hədəfə alıb. 2024-cü ilin aprel ayında layihə beş kənddə kartof nümayiş sahələri yaradıb və səkkiz fermerə 3,015 kq yüksək keyfiyyətli toxumluq kartof paylayıb (Xəbər 2). Layihə, saxlama, emal avadanlıqları və brendinq təşəbbüsləri daxil olmaqla, bank layihələri üçün potensial sahələri müəyyən etmə üzrə araşdırma aparır. Yardımlı kartofunu yüksək keyfiyyətli, ekoloji cəhətdən təmiz məhsul kimi bazara çıxarmaq üçün “Deman Kartofu” brendinin inkişafına dəstək verir. Bundan əlavə, layihə kollektiv sövdələşməni, bazara çıxışı və paylaşılan infrastruktur sərmayəsini artırmaq üçün Kartof İstehsalçıları Qrupu yaradıb. Bu səylərin məqsədi fermerlər üçün məhsuldarlığı və gəliri artırmaqdır.

Yardımlı rayonunda kartof dəyər zənciri bir sıra problemlərlə üzləşsə də, düzgün müdaxilələrlə təkmilləşmə potensialına malikdir. “EU4Lankaran” layihəsinin dəstəyi rayonda kartof istehsalından əldə edilən məhsuldarlığı və gəliri artıracağı gözlənilir. Davamlı səylərlə Yardımlı kartofu yerli iqtisadiyyata fayda gətirərək və fermerlərin gəlirini artıraraq daha çox tanına və bazarda uğur qazana bilər.



**Kartof, Yardımlı**

“Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonuna dəstəyi” layihəsi ilə bağlı yeniliklər üçün bizi izləməyə davam edin.

***Bu material Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Məzmun üçün yalnız layihə məsuliyyət daşıyır və Avropa İttifaqının fikirlərini əks etdirmir. Layihə “WeGlobal”ın rəhbərlik etdiyi konsorsium tərəfindən həyata keçirilir.***